# Müstəqillik yolu davamlı və uğurludur

**28 may Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulduğu gündür. Müstəqillik Günü Azərbaycan xalqının milli kimliyinin və qürurunun ən mühüm rəmzidir. Əsrlərlə azadlıq və müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı ötən əsrin əvvəllərində arzusuna çatdı. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.**

XX əsrin sonlarında müstəqilliyinə yenidən qovuşan Azərbaycan suverenliyini qoruyub saxlamağı bacardı. Çətin siyasi-iqtisadi dövrdə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Yaradılmasının 106-cı ilini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, xalqımız müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini yaşatmağa qadirdir. Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın qarşısında ən böyük xidməti ondadır ki, o özünün qısamüddətli fəaliyyəti dövründə Azərbaycanın istiqlaliyyətini elan etdi, xalqın milli mənlik şüurunu oyatdı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu sübuta yetirdi.

Ulu Öndər Heydər Əliyevin "Bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycan dövləti, müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin varisidir" sözləri vaxtilə apardığı uğurlu siyasətin nəticəsi olaraq təsdiqini tapmış, respublikamız öz müstəqilliyini dünyaya sübut etmiş, istiqlaliyyətimizin daimi, əbədi olmasını təmin etmişdir. Ulu Öndərin təbirincə, bu tarix Azərbaycan xalqının Vətənə, torpağa bağlılıq, sevgi tarixi idi və bu tarixə sədaqət müstəqilliyin əbədiliyinə real zəmin yaratdı.

Ümummilli Lider bildirirdi: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhvali-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

Prezident İlham Əliyevin 15 oktyabr 2021-ci il tarixdə təsdiqlədiyi "Müstəqillik Günü haqqında" Azərbaycan Respublikası Qanununda mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edilmişdir.

Həmçinin Prezident İlham Əliyevin sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi Azərbaycanın dövlətçilik tarixində çox mühüm və şərəfli bir mərhələ olan Şərqdə ilk parlamentli respublikanın əhəmiyyətinin hər zaman uca tutulduğunun, eləcə də dövlətçilik ənənələrinə böyük dəyər verildiyinin sübutudur. Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli Qanunu ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı" təsis olunub.

Tarixi Zəfərimiz bütün sahələrdə yeniliklərə, təkmilləşməyə yol açdı. Bu baxımdan, dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi, bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb etdi. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusu cəmi 44 gün davam edən Vətən müharibəsində tarixi Qələbə qazanaraq Ermənistanın 30 il işğal altında saxladığı ərazilərimizi geri qaytardı və bununla da işğala son qoyuldu. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad edərək Zəfər tariximizi yazdıq. Artıq işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işləri sürətlə aparılır. İllərdir yurd-yuva həsrəti ilə yaşayan insanlar öz yaşadıqları doğma yerlərinə mərhələli şəkildə dönürlər.

Ötən illər ərzində atılmış hər bir addım və qəbul olunmuş hər bir qərar doğma Azərbaycan torpaqlarının işğaldan azad olunmasına xidmət etdi. Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi gərgin əməyinin nəticəsində Azərbaycan ərazi bütövlüyünə qovuşdu, xalqımız dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanındı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. Ali Baş Komandanımızın və Rəşadətli Azərbaycan Ordusunun sayəsində xalqımız uzun illərdən sonra artıq dördüncü ildir ki, 28 May Gününü torpaqlarımızın işğaldan azad edilməsinin sevinci, Vətən müharibəsi zəferinin qüruru ilə qeyd edir.

Ötən ilin sentyabr ayında keçirilmiş və 23 saat davam edən antiterror tədbirləri nəticəsində isə Qarabağda separatizminin kökü bir dəfəlik kəsildi, Azərbaycan özünün ərazi bütövlüyünü və tam suverenliyini bərpa etdi.

2023-cü il 15 oktyabr tarixində dövlət başçımızın Xankəndidə ucaltdığı bayraq xalqımızın iradəsini, dövlətimizin gücünü bir daha bütün dünyaya nümayiş etdirdi. Prezident cənab İlham Əliyevin dediyi kimi, müstəqillik yolunda Azərbaycanın inkişafı davamlı, uğurlu və dövlət müstəqilliyi əbədi olacaq!

**M.MİRZƏ,**
**"Respublika".**